# DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU (IDI)

# AZƏRBAYCAN RESPUBLİKASI

## NÖVBƏDƏNKƏNAR PARLAMENT SEÇKİLƏRİ

**09 FEVRAL 2020-ci il**

# I ARALIQ HESABAT

**( 5 dekabr 2019 – 17 yanvar 2020-ci il )**

**BAKI**

**21 YANVAR 2019**

**MÜNDƏRİCAT**

**I. XÜLASƏ ........ 3**

**II. GİRİŞ ........ 4**

**III. SİYASİ KONTEKST VƏ SEÇKİ SİSTEMİ ........ 5**

**A. SİYASİ KONTEKST ........ 5**

**B. SEÇKİ SİSTEMİ ........ 5**

**IV. PARLAMENT SECKİLƏRİNƏ HAZIRLIQ ........ 6**

**A. SEÇKİ ADMİNİSTRASİYASI ........ 6**
**B. SEÇİCİ QEYDİYYATI ........ 6**
**C. SEÇKİ DAİRƏLƏRİNİN TƏŞKİLİ ........ 7**

**V. SECKİQABAĞI SİYASİ ŞƏRAİT VƏ İDDİAÇILAR ........ 8**

**A. SİYASİ ŞƏRAİT ........ 8**
**B. İDDİAÇILAR ........ 8**

**VI. NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLMƏSİ VƏ QEYDİYYATI** ........ 9

**A. Hüquqi çərçivə ........ 9**
**B. Rəsmi məlumat ........ 10**
**C. Namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesi üzrə müşahidələr ........ 10**

**VII. ŞİKAYƏT VƏ MÜRACİƏTLƏR ........ 18**

**VIII. MEDİA MÜHİTİ VƏ TƏŞVİQATA HAZIRLIQ ........ 19**

**A. MEDİA MÜHİTİ ........ 19**
**B. TƏŞVİQATA HAZIRLIQ ........ 21**

**IX. NƏTİCƏ VƏ TÖVSİYƏLƏR ........ 23**

# I. XÜLASƏ

Demokratik Təşəbbüslər İnstitutu (IDI) 5 dekabr 2019-cu ildə seçkilərə start verildikdən etibarən şərtlərin imkan verdiyi çərçivədə, seçkilərin gedişinin müşahidəsilə yanaşı, seçkidə iştirak edən müxtəlif tərəflərə hüquqi yardım göstərir.

Bu mərhələdə IDI seçkiöncəsi mühit, seçkilərə hazırlıq prosesi, namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesi, seçki administrasiyasının fəaliyyəti, təşviqata hazırlıq, şikayət və müraciətlərə baxılması vəziyyətinə dair monitorinqlər apararaq hesabat hazırlayıb. Həmçinin bu hesabatda seçki hüquqlarının pozulmasına səbəb olan amillərin aradan qaldırılması istiqamətində tövsiyələrini verib. Ümumilikdə hesabat 12 nəfərlik uzunmüddətli müşahidəçilərin apardığı monitorinqlər və seçkidə iştirak edən müxtəlif tərəflərlərdən toplanmış məlumatlar əsasında hazırlanıb.

Ölkədə siyasi kontekst dəyişməyib. Yenə də qarşıdan gələn seçki bir siyasi qüvvənin mütləq üstünlük təşkil etdiyi və hakim partiya ilə əsas müxalifət partiyaları arasında dialoqun yoxluğu ilə səciyyələnən siyasi mühitdə cərəyan edir. IDI-nin seçkiqabağı vəziyyətin qiymətləndirmə sənədində siyasi hüquqlar və fəaliyyət azadlığına dair təqdim etdiyi problemlər hələ də həllini tapmayıb.

Seckiqabağı dövrdə seçki dairələrinin təşkili ilə bağlı IDI-nin qeydə aldığı catışmazlıqlar aradan qaldırılmayıb.

IDI-nin apardığı müşahidələrə görə bəzi seçki dairələrinin ərazisində yerləşən seçki məntəqələrində səsverməyə 25 gün qalmışadək seçici siyahıları vurulmayıb. Bəzi seçki dairələri üzrə isə qanunun tələbi üzrə seçici siyahıları seçicilərin yaxşı görə biləcəyi və gediş-gəliş üçün asan olan yerlərdə yerəşdirilməyib.

2010 və 2015-ci il parlament seçkilərilə müqayisədə hazırkı seçkilərdə namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesində qanun pozuntuları sayca daha az, metod olaraq daha "səssiz" olduğu müşahidə olunub.

Bu seçkidə də pozuntular əsasən müxalf siyasi partiyalar və təşkilatlar adından, həmçinin müstəqil formada namizədliyi irəli surulmuş şəxslərə qarşı baş verib.

IDI Milli Məclisə seckilərin birinci mərhələsi - namizədlərin irəli sürülməsi və qeydiyyatı ilə bağlı ölkənin 74 secki dairəsi üzrə müxtəlif pozuntular qeydə alıb və həmin pozuntuları bir neçə adda qruplaşdırıb.

Seçkiöncəsi media mühitinə dair qiymətləndirmədə müsbətə doğru dəyişiklik olmayıb. Seçkiyə start verildikdən sonra ifadə azadlığı kontekstində bəzi pozuntular baş verib. Həmçinin seçki təşviqatına hazırlıq prosesi iştirak edən tərəflərə münasibətdə bərabər, rəqabətli və əlverişli təşviqat mühitinin yaradılacağının əksinə olaraq ciddi məhdudlaşdırmadan xəbər verir.

MSK öz fəaliyyətini texniki cəhətdən qanunauyğun qaydada və müddətdə həyata keçirsə də, namizədliyin irəli sürülməsi və qeydiyyatı mərhələsində rəsmi məlumatların izlənilməsini məhdudlaşdırıb. Ona görə də rəsmi təqdim edilən rəqəmlərin həqiqəti əks etdirməsi şübhəlidir.

Seçkilərin ilkin mərhələsində dairə seçki komissiyalarının hərəkət və hərəkətsizliklərindən olunan şikayətlərin əhəmiyyətli hissəsi obyektiv surətdə araşdırılmayıb. MSK-ya daxil olan 37 şikayətdən 24 -ü əsassız olması adı ilə təmin edilməyib. IDI hesab edir ki, təmin edilməyən şikayətlər üzrə hərtərəfli şəkildə araşdırılma aparılmayıb. Həmçinin MSK-nın "115 qaynar xətti" seçki zamanı baş verən pozuntu halları ilə bağlı dərhal məlumat vermək və aradan qaldırmaq üçün effektiv olmayıb.

IDI qeyd edir ki, namizədlərin irəli sürülməsi və qeydiyyatı dövründə baş verən qanun pozuntuları, təşviqata hazırlığın göstəriciləri 9 fevral 2020-ci il parlament seckilərinin azad, ədalətli və demokratik keçiriləcəyinə əsaslı şübhələr yaradır.

Ona görə də yerli və beynəlxalq təşkilatların cağırışlarına diqqət yetirilməli, eyni zamanda ölkədə qarşılıqlı etimad mühitinin yaradılması üçün siyasi və vicdan məhbusu kimi tanınan şəxslər həbsdən azad edilməlidir;

Qeydə alınmış qanun pozuntularının araşdırılması istiqamətində müvafiq tədbirlər görülməli, ədalətli, obyektiv və əsaslandırılmış qərarlar verilməlidir. Seçki huququnu pozan bütün şəxslər, xüsusən də bu işlərdə iştirak etmiş dövlət və bələdiyyə orqanlarının vəzifəli şəxsləri məsuliyyətə cəlb edilməli və cəzalandırılmalıdır.

Seckilərin növbəti mərhələlərində seçki subyektlərinə sərbəst və azad  secki mühiti yaradılmalı, sərbəst toplaşmaq, söz və mətbuat azadlığı təmin olunmalı, habelə seçki prosesinə kənar müdaxilələrin qarşısı alınmalıdır.

## II. GİRİŞ

9 fevral 2020-ci ildə Azərbaycanda növbədənkənar parlament seçkiləri keçiriləcək.

Demokratik Təşəbbüslər İnstitutu (IDI) 5 dekabr 2019-cu ildə seçkilərə start verildikdən etibarən şərtlərin imkan verdiyi çərçivədə, seçkilərin gedişinin müşahidəsilə yanaşı, seçkidə iştirak edən müxtəlif tərəflərə hüquqi yardım göstərir.

Bu mərhələdə IDI seçkiöncəsi mühit, seçkilərə hazırlıq prosesi, namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesi, seçki administrasiyasının fəaliyyəti, təşviqata hazırlıq, şikayət və müraciətlərə baxılması vəziyyətinə dair monitorinqlər apararaq hesabat hazırlayıb. Həmçinin bu hesabatda seçki hüquqlarının pozulmasına səbəb olan amillərin aradan qaldırılması istiqamətində tövsiyələrini verib. Ümumilikdə hesabat 12 nəfərlik uzunmüddətli müşahidəçilərin apardığı monitorinqlər və seçkidə iştirak edən müxtəlif tərəflərlərdən toplanmış məlumatlar əsasında hazırlanıb.

IDI-nin fəaliyyətilə bağlı daha ətraflı məlumatı təşkilatın rəsmi saytından[1] və bundan öncəki hesabatdan əldə etmək olar.[2]

[1] www.idi-aze.org

[2] http://idi-aze.org/az/idi-nin-nvbedenkenar-parlament-sekilerileri-ile-bal-qiymetlendirme-senedi/

## III. SİYASİ KONTEKST VƏ SEÇKİ SİSTEMİ

### A. SİYASİ KONTEKST

IDI-nin yaydığı 25 dekabr 2019-cu il tarixli "Seçkilər öncəsi qiymətləndirmə sənədində"[3] göstərilən siyasi kontekst dəyişməyib. Yenə də qarşıdan gələn seçki bir siyasi qüvvənin mütləq üstünlük təşkil etdiyi və hakim partiya ilə əsas müxalifət partiyaları arasında dialoqun yoxluğu ilə səciyyələnən siyasi mühitdə cərəyan edir.

Bu dövrdə Avropa İnsan Hüquqları Məhkəməsi (AİHM) 12 dekabr 2019-cu ildə Azərbaycan İslam Partiyasının sabiq sədri, hələ də həbsdə olan Mövsüm Səmədovun şikayəti üzrə qərarını elan edib. Qərara əsasən, məhkəmə M.Səmədova Avropa İnsan Hüquqları Konvensiyası ilə verilmiş azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması hüquqlarının (Konvensiyanın 5.3, 6.1, 6.3 maddələri) pozulduğunu bəyan edib və Azərbaycan dövlətinə 4 min avro təzminat cəzası kəsib.[4]

Həmçinin seçkilərə start verildikdən sonra beynəlxalq qurumlar seçkiləri izləməklə bağlı mövqelərini ifadə ediblər.

Azərbaycan hökumətinin dəvətilə 19-21 dekabrda Bakıya səfərə gələn ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) Ehtiyacları Qiymətləndirmə Missiyası 26 dekabr 2019-ci ildə hesabatını açıqlayıb.[5] 30 uzunmüddətli və 350 qısamüddətli müşahidə missiyası ilə fəaliyyətə başlama zərurətini bildirib. Qarşılıqlı razılıq əldə edildikdən sonra DTİHB-nin Müşahidə Missiyası 7 yanvar 2020-ci ildə media konfrans keçirməklə fəaliyyətə başladığını bəyan edib.[6] 13 yanvar 2020-ci ildən isə 30 nəfərlik Uzunmüddətli Müşahidə missiyasının fəaliyyətə başladığı barədə brifinq keçirilib.

Avropa Parlamenti isə Azərbaycanda keçiriləcək növbədənkənar parlament seçkilərini müşahidə etməyəcək. Bu barədə 08 yanvar 2020-ci ildə Avropa Parlamentindən Turan İnformasiya Agentliyinə daxil olan məlumatda deyilib. İmtinanın səbəbi açıqlanmır.[7]

### B. SEÇKİ SİSTEMİ

Tək palatalı parlament olan Milli Məclis beşillik müddət ərzində fəaliyyət göstərən 125 deputatdan ibarətdir. Deputatlar ***majoritar seçki sistemi*** üzrə birmandatlı seçki dairələrindən birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə seçilirlər. Seçkilərdə ən çox səs toplamış namizəd seçilmiş hesab edilir. Əgər seçki dairəsində heç bir namizəd qeydiyyata alınmayıbsa və ya yalnız bir namizəd qeydiyyata alınıbsa, o zaman həmin dairədə seçkilər təxirə salınır və proses təkrarlanır. Seçkilərin baş tutmuş hesab edilməsi üçün yetərsay tələb olunmur.

---

[3] http://idi-aze.org/az/idi-nin-nvbedenkenar-parlament-sekileri-ile-bal-qiymetlendirme-senedi/

[4] http://hudoc.echr.coe.int/eng?i=001-198888

[5] https://www.osce.org/odihr/elections/azerbaijan/442936?download=true

[6] https://azertag.az/xeber/ATAT_DTIHB_nin_sechki_musahide_missiyasi_Azerbaycanda_fealiyyete_baslayib-1381762

[7] http://www.turan.az/ext/news/2020/1/free/politics%20news/az/86375.htm

Əvvəlki parlament seçkiləri 1 noyabr 2015-ci ildə keçirilib. 5 dekabr 2019-ci ildə imzalanmış Prezident sərəncamı ilə Milli Məclis buraxılaraq altıncı cağırış Parlament seckiləri 9 fevral 2020-ci ilə təyin edilib.

## IV. PARLAMENT SECKİLƏRİNƏ HAZIRLIQ

### A. SEÇKİ ADMİNİSTRASİYASI

Növbədənkənar parlament seçkiləri Mərkəzi Seçki Komissiyası (MSK), 125 Dairə Seçki Komissiyası (DSK) və 5426 Məntəqə Seçki Komissiyasından (MnSK) ibarət üçpilləli struktura malik qurum tərəfindən idarə olunur. Bütün komissiyalar beşillik müddətə seçilən, müvafiq olaraq 18, 9 və 6 nəfərdən ibarət daimi orqanlardır. MSK üzvləri, DSK sədr və katibləri istisna olmaqla, digər komissiya üzvləri daimi əməkhaqqı almır, yalnız seçkilər dövründə qısamüddətli əməkhaqqı alırlar. MSK üzvləri parlament tərəfindən seçilir, DSK-lar Mərkəzi Seçki Komissiyası və MnSK-lər isə müvafiq DSK-lar tərəfindən təyin edilir. Komissiya üzvlərinin üçdə biri parlament çoxluğunu, üçdə biri parlament azlığını və üçdə biri isə bitərəf deputatları təmsil edir. Qanuna əsasən, bütün komissiya sədrləri parlament çoxluğunun namizədidirlər. Beləliklə, parlament çoxluğu "de-fakto" bütün seçki komissiyalarında səs çoxluğuna malikdir. Son illərdə seçki komissiyalarının alternativsiz səslə qəbul etdiyi bütün qərarlar da bunu əyani subut edir.

ATƏT/DTİHB 2010[8] və 2018-ci il[9] seçkilərindən sonra və Venesiya Komissiyası[10] dəfələrlə tövsiyə etmişdir ki, seçki komissiyalarının hakimiyyətyönlü qüvvələrin nəzarəti altında olmamasını və ictimaiyyətin, xüsusilə, seçkilərin nəticələrini mübahisə edən siyasi partiyaların inamını qazanmasını təmin edə biləcək üsulla formalaşdırmağa yenidən baxılsın. Bu tövsiyələr yenə də baxılmamış qalır.

Seçki üçün texniki hazırlıq prosesi gedir, seçki administrasiyası müvafiq son tarixləri gözləməklə bərabər, tələb olunan əlavə normativ sənədləri qəbul etməkdədir. MSK iclasları mətbuat və müşahidəçilərə açıqdır. Qərarlar dövlətin maliyyələşdirdiyi media və MSK-nın internet səhifəsi vasitəsilə ictimaiyyətə açıqlanır.

MSK bu dövrdə seçki hüququnun pozulmasına dair müraciətlərə baxılmasına həsr olunan seminarlar, Avropa Şurasının Bakı Ofisi ilə birlikdə "Seçkinin mediada işıqlandırılması" mövzusunda informasiya sessiyası, onlayn media və TV-lərdə maarifləndirici çarxlar, seçiciləri məlumatlandırma plakatlarının yayılmasını həyata keçirib.

### B. SEÇİCİ QEYDİYYATI

Məhkəmə qərarı ilə bu hüquqdan məhrum olan şəxslər istisna olmaqla, 18 yaşına çatmış Azərbaycan Respublikasının hər bir vətəndaşının seçmək və seçilmək hüququ var. Seçici qeydiyyatı passiv xarakter daşıyır və seçici siyahıları MSK-nın idarə etdiyi seçicilərin daimi qeydiyyat bazası əsasında tərtib olunur. Vətəndaşın seçki məntəqəsi üzrə seçici siyahısına daxil edilməsi üçün həmin vətəndaşın olduğu yer üzrə daimi yaşaması (seçkilərin elan olunması günündən əvvəlki 12 ayın azı 6 ayı ərzində) faktı əsas götürülür.

---

[8] https://www.osce.org/odihr/75073?download=true

[9] https://www.osce.org/odihr/elections/azerbaijan/388580?download=true

[10] https://www.venice.coe.int/webforms/documents/?pdf=CDL-AD(2004)016rev-e

Secki Məcəlləsinə əsasən, seçicilərin daimi siyahısı MSK-nın muəyyənləşdirdiyi formada hər il mayın 30-dək hər bir seçki məntəqəsi üzrə təsdiq edilir və səsvermə gününə azı 25 gün qalmış dəqiqləşdirilir. Seçicilər adlarının siyahıda olub-olmamasını MSK-nın internet səhifəsi və yaxud 115 nömrəli ”qaynar xətt”i vasitəsilə də yoxlaya bilərlər. Seçki məntəqəsinin ərazisində yaşamalarını təsdiq edə bilən və seçki hüququ olan vətəndaşlar adı daimi seçici siyahısında yoxdursa, seçki günü MnSK-da olan əlavə seçici siyahısında qeydiyyatdan keçə bilərlər.

Qeyd edək ki, IDI-nin seçki öncəsi qiymətləndimə sənədində MSK-nın və Dövlət Statistika Komitəsinin yaydığı rəqəmlər arasındakı ziddiyyət də əksini tapıb. Belə ki, MSK-nın vahid seçicilər siyahısında 2019-cu il mayın 29-na qədər olan rəqəmlə (5 212 902) Dovlət Statistika Komitəsinin açıqladığı və 2019-cu il yanvarın 1-nə qədər olan rəqəm (əhalinin (9 981 500) yaşı 18 olan hissəsinin sayı təqribən 7 353 000-dir[11]) arasındakı təqribən 2 140 098 nəfərlik fərqə hələ də aydınlıq gətirilməyib.

Bundan öncə də yerli QHT-lər və media təmsilcilərinin, ATƏT/DTİHB-nun dəfələrlə ifadə etdikləri narahatlıqlara baxmayaraq, yuxarıda adıçəkilən orqanlar bu uyğunsuzluqlara ağlabatan izah verməyiblər. Bununla əlaqədar IDI 2015-ci ildə yaydığı “Seçici Qeydiyatının Auditi” adlı araşdırmasında problemin mahiyyətini daha ətraflı izah edir.[12]

Seçki Məcəlləsinin tələbinə görə məntəqə seçki komissiyası səsvermə gününə azı 35 gün qalmışdan 25-gün qalmışadək seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçici siyahılarını səsvermə otağından kənarda, seçicilərin yaxşı görə biləcəyi və gediş-gəliş üçün asan olan yerlərdə məlumat lövhələrində yerləşdirməlidir.

IDI-nin apardığı müşahidələrə görə 27, 28, 40, 41, 42, 43, 44, 46, 73, 76, 81, 84, 89, 93, 94, 95, 110, 125 saylı seçki dairələrinin ərazisində yerləşən seçki məntəqələrində 15 yanvar 2020-ci ilə qədər seçici siyahıları vurulmayıb. Müşahidəçilər seçici siyahısı haqda məlumat ala bilməyiblər.

Həmçinin 8, 9, 10, 15, 16, 18, 21, 23, 29, 32, 33 saylı seçki dairələri üzrə isə qanunun tələbi üzrə seçici siyahıları seçicilərin yaxşı görə biləcəyi və gediş-gəliş üçün asan olan yerlərdə yerləşdirilməyib. Müşahidəçilər seçici siyahısı haqda məlumat ala bilmək üçün xeyli inzibati resursların və təhlükəsizlik xidmətlərinin maneələri ilə üzləşiblər.

## C. SEÇKİ DAİRƏLƏRİNİN TƏŞKİLİ

Seckiqabağı dövrdə seçki dairələrinin təşkili ilə bağlı IDI-nin qeydə aldığı catışmazlıqlar[13] aradan qaldırılmayıb. Nəticədə Seçki Məcəlləsinin tələb etdiyi seçicilərin orta təmsilçilik norması baxımından seçki dairələri arasında olan balans pozulmaqda davam edir. Belə olduqda həm seçilən, həm seçən tərəflər üçün bərabərlik prinsipi pozulmuş olur, həm də namizədlərin işləmək imkanları çətinləşir. Bu da seçkidə imkan bərabərliyini şübhə altına qoyur.

---

[11] https://www.stat.gov.az/source/demoqraphy/

[12] https://idi-aze.org/az/seici-qeydiyyatnn-auditi-pdf/

[13] http://idi-aze.org/az/idi-nin-nvbedenkenar-parlament-sekilerileri-ile-bal-qiymetlendirme-senedi/ , Səh.19

## V. SECKİQABAĞI SİYASİ ŞƏRAİT VƏ İDDİAÇILAR

### A. SİYASİ ŞƏRAİT

IDI-nin **"Seçkilər öncəsi qiymətləndirmə sənədi"**ndə "Seçkiqabağı vəziyyət" başlığı ilə təqdim etdiyi *(Siyasi hüquqlar və fəaliyyət azadlıqlarının ciddi şəkildə məhdudlaşdırılması; siyasi rəqiblərə qarşı təqib və təzyiqlər, müstəqil vətəndaş cəmiyyəti və media təmsilçilərinin təzyiq siyasətinin hədəfinə çevrilməsi; xarici donorların ölkə QHT-lərinə qrant verilməsi yollarının hüquqi baxımdan əngəllənməsi: siyasi məhbus probleminin aktuallığı, müstəqil vəkillərə qarşı təzyiqlər və s.)* problemlər hələ də həllini tapmayıb.[14]

Bu hesabat dövründə də siyasi fəallara qarşı təqiblərlə bağlı IDI aşağıdakı məlumatları qeydə almışdır:

- Azərbaycan Xalq Cəbhəsi Partiyasından (AXCP) verilən məlumata görə, Sumqayıt təşkilatının fəalı Kənan Əzizli dekabrın 22-də Sumqayıt Şəhər Məhkəməsinin qərarı ilə 10 sutka inzibati həbs alıb. Məhkəmə Sumqayıt Şəhər Polis İdarəsinin iddiası əsasında K.Əzizlini İnzibati Xətalar Məcəlləsinin (İXM) 535.1-ci (Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama) maddəsinin tələblərini pozmaqda təqsirli bilib.[15]
- 13 yanvar 2020-ci ildə isə AXCP Salyan şöbəsinin fəalı Əlizamin Salayev Səbail Rayon Məhkəməsində İXM-nin 535.1-ci maddəsi ilə 30 sutka həbs edilib. Digər AXCP üzvləri - Nicat Abdullazadə və Ceyhun Novruzov barəsində Səbail Rayon 8-ci Polis Bölməsi İXM 510-cu maddəsi (xırda xuliqanlıq) ilə protokol tərtib edib. Məhkəmə hər iki fəalı 50 manat cərimələyib. Partiyadan bildirilir ki, həbslər fəalların siyasi fəaliyyəti ilə əlaqəlidir.[16]

### B. İDDİAÇILAR

Siyasi partiyalar institutsional olaraq funksionallıqdan çıxarılıb və onların fəaliyyəti üçün hüquqi və sərbəst mühit yoxdur. Əsas müxalif qurumlardan olan Milli Şura və onun aparıcı qüvvəsi olan AXCP seçkilərin demokratik keçirilməsinə inamsızlığını ifadə edərək iştirakı boykot etmişdir. Seçkilərə start verildikdən sonra isə Azərbaycan Demokratiya və Rifah Hərəkatı, Klassik Xalq Cəbhəsi Partiyası seçkilərdə iştirakdan imtina etdiyini bəyan edib.

Yaradılmış bütün çətinliklərə baxmayaraq, ölkənin aparıcı müxalif siyasi qurumlarından sayılan Müsavat Partiyası və ReAl Partiyası seçkilərdə iştirak etməyi qərara almışdır.

Müsavat Partiyası ilk dəfədir ki, seçkidə iştirakla bağlı həm partiya tərəfindən, həm də namizədlərin öz təşəbbüsü ilə (partiya mənsubiyyəti Müsavat göstərilməklə) irəli sürülmə formasını seçib.

---

[14] http://arqument.az/az/idi-den-parlament-sekileri-ncesi-hesabat-tam-metn/#.ViD5cNLhDMx

[15] https://www.azadliq.org/a/30339713.html?fbclid=IwAR20HJ6Z5G3pqww-7EN7LrNZwBJcO24iPIdriqj0nVOyN-wpb91X_rJy4UY

[16] https://www.azadliq.org/a/axcp-fəallarından-xəbər-yoxdur/30374837.html?fbclid=IwAR3k0WjV8RuQIg55-H4PvK4EG4kA6uYyQvYjsHWH--Hvjh-CITHW_iFvYlw8

ReAl Partiyası isə rəsmi qeydiyyatı olmadığına görə seçkidə iştirakın namizədlərin öz təşəbbüsü ilə (partiya mənsubiyyəti bitərəf göstərilməklə) irəli sürülmə formasını seçib və müstəqil şəxslərlə birlikdə "REAL Cümhuriyyətçilər İttifaqı" adı blok yaradıb.

Eyni zamanda Nida Vətəndaş Hərəkatı və D18 Hərəkatı müxalif və müstəqil ictimai-siyasi fəallarla birləşərək "Hərəkət" seçki bloku formatında prosesə qoşulub.

Əslində isə qeyd olunan bloklar seçki qanunvericiliyinin müəyyən etdiyi tələblərə[17] cavab vermədiyinə görə MSK-da seçki bloku olaraq qeydiyyatdan keçməyib. Tərəflər blok adını daha çox birgə ictimai-siyasi kampaniya aparmaq üçün istifadə edirlər.

Ümid Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Azərbaycan Demokrat Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası və digər partiyalar da seçkilərdə iştirak edirlər.

Seçkilərdə ən çox namizəd sayına hakim Yeni Azərbaycan Partiyası (YAP) malikdir.

İrəli sürülən və qeydə alınan namizədlər barəsində daha ətraflı məlumat 1 saylı Əlavədə verilib.

## VI. NAMİZƏDLƏRİN İRƏLİ SÜRÜLMƏSİ VƏ QEYDİYYATI

2010 və 2015-ci il parlament seçkilərilə müqayisədə hazırkı seçkilərdə namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesində qanun pozuntuları sayca daha az, metod olaraq daha "səssiz" olduğu müşahidə olunub. Bu seçkidə də pozuntular əsasən hakimiyyətin siyasətini dəstəkləyən və ya ona açıq loyal münasibət göstərənlər istisna olmaqla, digər, xüsusilə də müxalf siyasi partiyalar və təşkilatlar adından, həmçinin müstəqil formada namizədliyi irəli surulmuş şəxslərə qarşı baş verib.

### A. Hüquqi çərçivə

Parlament seçkilərində deputatlığa namizəd olmağa dair tələblər Konstitusiyanın 56 və 85-ci maddələri, Seçki Məcəlləsinin 13 və 144-cü maddələrilə tənzimlənir. 2016-cı ildə keçirilən referendumla Konstitusiyaya edilən dəyişikliklərdən sonra parlament seçkilərinin keçirilməsi günü 18 yaşına çatmış (əvvəllər 25 yaş tələb olunurdu) hər bir vətəndaşın Milli Məclisin deputatı seçilmək hüququ var. Ali təhsil tələb olunmur.

Qanunvericilik həmçinin bəzi hallarda seçilmək hüququnu məhdudlaşdırır. Belə hallar məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər; Cinayət Məcəlləsinin 15.4-15.5-ci maddələrində nəzərdə tutulan (ağır və xüsusilə ağır) cinayətlərə görə məhkum olunmuş (məhkumluğu ödənilməyənədək) şəxslər; ikili vətəndaşlığı olan şəxslər (ikili vətəndaşlığı qalanadək); 5 ildən çox xarici dövlətdə yaşamaqla xarici dövlətlər qarşısında öhdəlikləri olan şəxslər (həmin öhdəliklərə xitam verilənədək); hərbi qulluqçular (hərbi qulluqda olduqları müddətdə); hakimlər (hakim olduqları müddətdə); dövlət qulluqçuları (dövlət qulluğunda olduqları müddətdə); din xadimləri (peşəkar dini fəaliyyət ilə məşğul olduqları müddətdə); elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan (davam etdiyi müddətdə); icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən ( davam etdiyi müddətdə); fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən şəxslər üçün nəzərdə tutulur.

[17] Seçki Məcəlləsi, Maddə 50

Seçki Məcəlləsinin 53-cü maddəsinə əsasən,  namizəd öz təşəbbüsü və ya aktiv seçki hüququ olan seçicilər tərəfindən irəli sürülə bilər. Məcəllənin 54-cü maddəsinə görə, namizədin irəli sürulməsini, həmçinin siyasi partiya və ya siyasi partiyalar bloku həyata kecirə bilər. Siyasi partiya həmin partiyanın üzvləri olmayan şəxslərin namizədliyini də irəli sürə bilər. Namizədliklər müvafiq DSK-lara yazılı bildiriş təqdim etməklə irəli sürülür. DSK təqdim edilmiş sənədləri beş günlük müddət ərzində yoxlamalı və namizədliyin  təsdiq edilib-edilməməsi barədə qərar verməlidir. Təsdiq edildikdə müvafiq seçki dairəsi ərazisi üzrə deputatlığa namizəd kimi qeydə alınmaq üçün  namizədliyi irəli sürülmüş hər bir vətəndaşa müvafiq dairə ərazisindən ən azı 450 seçici imzası toplanması üçün imza vərəqələri verilməlidir. DSK imza vərəqələrini təhvil vermiş namizədin imzalarını və digər sənədlərini 7 gün ərzində yoxlayaraq namizədliyin qeydə alınıb-alınmaması haqqında qərar verməlidir.

## B. Rəsmi məlumat

Hazırki parlament seçkilərində namizədlərin irəli sürülməsi prosesinə rəsmi olaraq 5 dekabr 2019-cu il tarixində start verilib və qeydə alınması üçün son müraciət tarixi 10 yanvar 2020-ci ilədək davam edib.

MSK əvvəlki müsbət təcrübədən fərqli olaraq,  2015-ci ildən tətbiq etdiyi neqativ təcrübəni bu seçkidə də nümayiş etdirib. Belə ki, bu seçkidə də rəsmən namizədliklərini irəli sürmüş şəxslər və partiyalar barədə öz internet resursunda ətraflı məlumat yaymadı, yalnız komissiyanın iclaslarının sonunda ümumiləşmiş statistika verib. Lakin seçkidə iştirak edən tərəflərin və ictimai şəxslərin tənqidindən sonra MSK 11 yanvar 2020-ci ildən[18] etibarən seçki dairələri üzrə məlumatı öz saytında yerləşdirməyə başlayıb. Bu zaman da mərhələlər üzrə namizədlərə yönəlik addımların tarixləri gizlədilib, yalnız həmin hərəkətlər üzrə "+" işarəsi qoyulub. 17 yanvar 2020-ci ildən etibarən isə həmin məlumatlar saytdan ümumən yığışdırılıb və yalnız qeydə alınanların məlumatları saxlanılıb.[19]

Beləliklə, namizədliyin irəli sürülməsi və qeydiyyatı mərhələsində rəsmi məlumatların izlənilməsi MSK tərəfindən məhdudlaşdırılıb. Ona görə də rəsmi təqdim edilən rəqəmlərin həqiqəti əks etdirməsi şübhəlidir.

MSK bildirib ki, **2358** nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib. Onlardan **2247** nəfər imza vərəqələrini götürüb, **1774** nəfəri imzaları toplayaraq zəruri sənədlərlə birlikdə qaytarıb. Nəticədə **1560** nəfərin deputatlığa namizədliyi qeydə alınıb.[20]

Bu barədə iştirakçı tərəflərin IDI-yə verdiyi məlumatlarla MSK-nın göstərdiyi rəsmi məlumatlar arasında fərqlər var. Həmçinin MSK-nın yuxarıda açıqladığı statistik rəqəmlərlə Seçkilər İnformasiya Mərkəzinin seçki dairələri üzrə qeydə alınmış namizədlər barədə məlumatların sayını müqayisə etdikdə də nəticələr fərqlənir. Daha ətraflı məlumatı 1 saylı Əlavədən əldə etmək olar.

## C. Namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesi üzrə müşahidələr

IDI 9 fevral 2020-ci il Milli Məclisə seckilərin 1-ci mərhələsi - namizədlərin irəli sürülməsi və  qeydiyyatı ilə bağlı pozuntuları ölkənin 74 secki dairəsi üzrə apardığı müşahidə ilə qeydə alıb. ( 2 saylı Əlavə). Digər seçki dairələrində müşahidə olunmuş pozuntu halları üzrə araşdırma davam edir.

---

[18] https://modern.az/az/news/223468

[19] https://www.infocenter.gov.az/archive/MilliMeclis2020.aspx?i=4

[20] https://report.az/siyasi-xeberler/daxili-siyaset/msk-1560-neferin-deputatliga-namizedliyi-qeyde-alinib/

**IDI müşahidə etdiyi pozuntu hallarını aşağıdakı formada qruplaşdırıb:**

**1) Keçmiş siyasi məhbusların seçkidə iştirakına maneə**

Barələrində AİHM-in qərarlarına və Avropa Şurası Nazirlər Komitəsinin 5 dekabr tarixli qərarına[21] baxmayaraq, seçkidə potensial namizəd olan keçmiş siyasi məhbusların (İlqar Məmmədov, Rəsul Cəfərov, Zaur Qurbanlı)[22]üzərlərində məhkumluğun qalması səbəbilə seçkidə iştirakları əngəllənib. ReAl sədri İlqar Məmmədovun seçilmək hüququnun Azərbaycan hakimiyyəti tərəfindən təmin edilməməsi barədə şikayəti ilə bağlı Avropa Şurası Nazirlər Komitəsinin[23] yanvarın 7-də yaydığı məlumatda deyilir ki, Azərbaycanın Ali Məhkəməsinin plenumu bu işə baxılması tarixi ilə bağlı hələlik heç bir qərar qəbul etməyib. Rəsmi Bakı Nazirlər Komitəsinə bildirib ki, Ali Məhkəmənin qərarı "mümkün qədər tez müddətdə" açıqlanacaq. Həmçinin İlkin Rüstəmzadə[24] və Qiyasəddin İbrahimov da məhkumluğa görə seçkidən kənarda saxlanıldı. Bu şəxslərin məhkumluqları üzərlərindən götürülməsə, gələcəkdə də seçkilərdə namizəd kimi iştirak edə bilməyəcəklər.

**2) Namizəd olmaq istəyən şəxslərə münasibətdə bərabərliyin pozulması**

Seçki Məcəlləsinin 55-ci maddəsində göstərilir ki, namizədliyini irəli surmüş şəxslərə bərabər şərait yaradılmalıdır. Lakin bəzi Dairə Secki Komissiyaları qeyd olunan maddənin tələblərinə əməl etməyərək, namizəd olmaq istəyən şəxslərə qarşı ayrı-seçkilik numayiş etdirib. Namizədliyini irəli sürən (iqtidar partiyası və ya hakimiyyətyönlü olmayan) şəxslərdən qanunvericilikdə nəzərdə tutulmayan əlavə sənədlər tələb olunub, sənədlərin qəbulu və imza vərəqələrinin verilməsində müxtəlif problemlər yaradılıb.

***Bu cür pozuntular üzrə IDI-nin muşahidə etdiyi hallara dair numunələr:***

- 15 saylı Yasamal birinci seçki dairəsindən müstəqil namizəd, NİDA üzvü Əli Zeynalov və 110 saylı Zaqatala seçki dairəsindən müstəqil namizəd Nurlana Cəlildən DSK sədrləri işsiz olması barədə arayış tələb ediblər. Həmçinin Nurlana Cəlil çox saylı cəhdlərdən sonra MSK-nın müdaxiləsi və pozuntunun ictimailləşməsindən sonra DSK-ya sənədlərini təqdim edə bilib.
- "Hərəkət" seçki blokunun namizədi Azər Qasımlı 17 saylı Yasamal üçüncü seçki dairəsinə imzalarını ilk təqdim edən namizəd olmasına baxmayaraq, ondan 4 gün sonra imzalarını təqdim edən YAP-ın namizədi A.Qasımlıdan öncə qeydə alınıb.
- 18 saylı Nərimanov-Nizami seçki dairəsindən Müsavat Partiyasının namizədi Namiq Niftiyev bildirir ki, ondan sonra müraciət edən namizədlərdən gec qeydə alınıb. Deputat Rasim Müsabəyovun namizədliyi tez bir zamanda təsdiqlənib.

---

[21] https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=090000168098f832&fbclid=IwAR1ueL6H-%20F4Qqiz8nNjybTAJ7-OD14Ao7v2HaDg-GYytgWvf94Ff3ogEAbUTM

[22] https://www.bbc.com/azeri/azerbaijan-50877607

[23] https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectId=090000168099685c&fbclid=IwAR2M7ELV78RhINhryk641UaYYzPhwmp9jyM_j-OSTRTuyiSUEJ8MSPZ4bns8

http://www.msk.gov.az/plugins/pdf/datafiles/az_FILE_732044-889C65-6D1834-A1992F-0898DE-743984.pdf

- 23 saylı Nəsimi-Səbail seçki dairəsindən "Hərəkət" seçki blokunun namizədi Toğrul Vəliyev namizədliyini irəli sürərkən tələb olunandan artıq sənədlər istənilib, həmçinin DSK sədrinin yerində olmaması səbəbləri göstərilərək sənədlərin rəsmi qəbulu gecikdirilib.
- 27 saylı Sabunçu ikinci seçki dairəsindən "Hərəkət" seçki blokunun namizədi Zaur Rövşənliyə DSK imza vərəqələrini 7-ci gün verib.
- 27 saylı Sabunçu ikinci seçki dairəsindən müstəqil namizəd Telman Quliyevin sənədlərini DSK iş yerindən arayış olmadan qəbul etməyib.
- 29 saylı Səbail seçki dairəsi üzrə müstəqil namizəd Bəxtiyar Hacıyevdən DSK məhkumluq haqqında arayış istəyib və imzalarını təqdim edərkən "əcəb edirəm, götürmürəm" deyərək sənədləri qəbul etmək istəməyib.
- 29 saylı Səbail seçki dairəsindən "Hərəkət" seçki blokunun namizədi Elgiz Qəhrəman namizədliyini irəli sürərkən siyasi məhbus olduğu üçün DSK tərəfindən məhkumluq sənədi, işsizlik barədə arayış və.s tipli qanunun tələb etmədiyi sənədlər istənilib. Həmçinin onun namizədliyi mülkiyyətini düzgün göstərməməsinə görə qeydə alınmayıb. Eyni sənədlərlə həmin DSK tərəfindən 23 dekabr Bələdiyyə seçkilərində namizədliyi qeydə alınmışdı.
- Müsavat Partiyasının 30 saylı Suraxanı birinci seçki dairəsindən namizədi Misir Məhəmmədoğludan işsizlik haqqında arayış tələb ediblər və bu səbəbdən müraciətini qeydə almağı gecikdiriblər.
- 40 saylı Kəpəz (Gəncə) seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Toğrul İskəndərli 13 dekabr 2019-cu il tarixində DSK–ya müraciət edərkən ondan işsizlik haqqında arayış, nikah haqqında şəhadətnamə, həyat yoldaşının iş yerindən arayış istənilib.
- 40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsindən Ümid Partiyasının namizədi Salman İmanlıdan da nikah haqqında şəhadətnamə və işsizliklə bağlı arayış istənilib.
- 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən müstəqil namizəd Murad Ağamiyev 10 yanvar 2020-ci il tarixində saat 17:53-də imza vərəqələrini və digər sənədlərini DSK-ya təqdim etmək istəsə də DSK bağlı olmuşdur.
- 46 saylı Şirvan seçki dairəsindən "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Vasif Novruzov 15 dekabr 2019-cu ildə DSK–ya namizədlik üçün müraciət edərkən işsizlik haqqında arayış, diplomun əsli, hərbi biletin surəti, əmək kitabçasının surəti kimi 12-yə qədər sənəd istənilib. Sənədləri təqdim etdikdə isə DSK arayış verməkdən imtina edib.
- "Hərəkət" seçki blokunun 73 saylı Lənkəran seçki dairəsi üzrə namizədi Baba Məmmədli Dairə Seçki Komissiyasına imza vərəqlərini keçmiş deputat Rüfət Quliyevdən tez təqdim etsə də, ondan gec qeydə alınıb.
- 16 dekabr 2019-cu il tarixində 74 saylı Lənkəran kənd seçki dairəsindən müstəqil namizəd Əlisəfa Bünyatzadəyə DSK sədri bildirib ki, iş yerindən arayış olmadan sənədlərini qəbul etməyəcək və imza vərəqələrini 4 gün gecikdirib.

- 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsindən Ümid Partiyasının namizədi Məhəmməd Böyükkişiyev bildirir ki, digər namizəd Ağalar Məhərrəmova normadan artıq imza vərəqəsi veriblər. Ona isə ərizə yazmasına baxmayaraq, 10-dan artıq imza vərəqi verilməyib.

- 110 saylı Zaqatala seçki dairəsindən namizəd Saleh Soltanov bildirib ki, sənədləri təqdim edərkən DSK sədrini xidməti yerində tapmaq mümkün olmayıb.

- Müsavat Partiyasının 115 saylı Şəki kənd ikinci seçki dairəsindən namizədi Bakıxan Qəribli, 119 saylı Ağdam kənd seçki dairəsindən namizədi Rəşid İbadov, 125 saylı Zəngilan-Qubadlı seçki dairəsindən namizədi Kərimxan Zeynalov namizədliklərini irəli sürmək istəyərkən müvafiq DSK-lar Bələdiyyə seçkilərilə məşğul olduqlarını əsas gətirərək bir neçə gün sonra gəlmələrini bildiriblər. Əlavə olaraq 41 saylı Sumqayıt birinci seçki dairəsindən Müsavat Partiyasının namizədi Könül Alıyevanın işsizlik arayışı olmadığına görə DSK sənədlərini qəbul etməkdən imtina edib. Daha sonra partiyanın səlahiyyətli nümayəndəsinin MSK-ya müraciətindən sonra problemin aradan qaldırıldığı deyilsə də, DSK nümayəndəsi Könül Alıyevaya onun məlumatlarının daxil edilmədiyini və işsizlik haqqında arayışı gətirməsini bildirib.

Eyni pozuntulara cədvəldə göstərilən DSK-larda da yol verilib. Əksər DSK-lar hakim partiyanın və hakimiyyətyönlü namizədlərin sənədlərini qəbul edib imza vərəqələrini 1-2 gün ərzində, müxalif və hakimiyyətin nəzarətindən kənar müstəqil olan namizədlərin imza vərəqələrini isə bir qayda olaraq sənəd qəbulundan 5 gün sonra, qanunda nəzərdə tutulmuş ən son gün təqdim edib.

### 3) İnzibati resurslardan sui-istifadə

Seçki Məcəlləsinin 55.2-ci maddəsində qeyd edilir ki, vəzifə mövqeyindən və ya xidməti mövqedən üstünlük əldə etməklə istifadə olunan hərəkətlər qadağan edilir. Həmçinin Seçki Məcəlləsinin 57.1-ci maddəsində gostərilir ki, dövlət orqanlarının, bələdiyyə qurumlarının, mulkiyyət formasından asılı olmayaraq huquqi şəxslərin imza toplanmada iştirakına yol verilmir və həmin şəxslərin 11-1-ci maddəyə görə seçkilərin gedişinə qanunsuz müdaxilə etmələri qadağandır.

***Bu cür pozuntular üzrə IDI-nin muşahidə etdiyi hallara dair numunələr:***

- 10 saylı Binəqədi üçüncü seçki dairəsindən "Hərəkət" blokunun namizədi Rəbiyyə Məmmədova bildirir ki, həmin dairədən digər namizəd Madər Musayev evlərə getmədən şəxsiyyət vəsiqələrini toplatdırmaqla imza yığıb.

- 53 saylı Quba-Qusar seçki dairəsindən Müsavat Partiyasının namizədi Yaşar İsrafilov bildirir ki, bəzi evlərə getdiyi zaman şəxsiyyət vəsiqələrinin onlarda olmadığını bildiriblər. Bunu qeyd edən şəxslər dövlət qulluğunda olduğu üçün onların şəxsiyyət vəsiqələri yığılaraq Quba şəhərinə aparılıb. O, ümumi olaraq 30-40 belə halla qarşılaşıb.

- 93 saylı Bərdə şəhər seçki dairəsindən "REAL Cümhuriyyətçilər İttifaqı"nın namizədi Ərəstun Baxşəliyev bildirib ki, imza toplayarkan əhalidən şəxsiyyət vəsiqələrinin icra strukturları tərəfindən hakimiyyəti dəstəkləyən namizədin xeyrinə toplandığı məlum olub.

- 103 saylı Gədəbəy seçki dairəsindən Ümid Partiyasının irəli sürdüyü namizəd Fəqani Hüseynov bildirir ki, digər namizəd Oqtay Hüseynovun atası polis müstəntiqi Hüseynov İbrahim öz oğlunun xeyrinə imza toplamada iştirak edib.

IDI-nin müşahidələrinə görə, 2 saylı Əlavədə qeyd olunan seçki dairələri üzrə hakim partiyanın irəli sürdüyü namizədlərin və ya hakimiyyətyönlü namizəd kimi bilinən şəxslərin seçki sənədlərinin hazırlanması, imzalarının yığılması işi yerli icra hakimiyyəti orqanlarının və bələdiyyə qurumlarının işçiləri tərəfindən müəssisələrdə və məktəblərdə həyata keçirilib.

### 4) İmzaların toplanması prosesinə yaradılan maneələr

Seçki Məcəlləsinin 57-ci maddəsində imza toplama prosesində seçiçiləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna gorə onları hər hansı formada mükafatlandırmaq qadağan edilir. Bəzi seçki dairəsində, xüsusən əyalətlərdə müxalif namizədə imza verməməsi, imza verən seçicilərə verdiyi imzadan imtina etməsi üçün təzyiqlər edilib.

***Bu cür pozuntular üzrə IDI-nin muşahidə etdiyi hallara dair numunələr:***

- 17 saylı Yasamal üçüncü seçki dairəsindən “Hərəkət” seçki blokunun namizədi Azər Qasımlı 23 dekabr Bələdiyyə seçkiləri zamanı 31 saylı orta məktəbin qarşısında imza toplamaq istəyərkən polis və sahə müvəkkili ona mane olub.

- 23 saylı Nəsimi-Səbail seçki dairəsindən Müsavat Partiyasının namizədi Zakir İsmayılov əlavə imza vərəqi üçün DSK-ya müraciət etdiyi zaman vərəqələrin bitdiyini bildiriblər.

- 53 saylı Quba-Qusar Seçki Dairəsindən Müsavat Partiyasının namizədi Yaşar İsrafilov imzaları təqdim edən zaman Qonaqkənd ərazi icra nümayəndəsi Elvin Hüseynov onun üzərinə gələrək vərəqələri ondan almağa cəhd edib. Lakin kənar müdaxilələr nəticəsində buna mane olunub. Yaşar İsrafilov imza vərəqələrini DSK-ya təqdim edərkən DSK sədri Rahib Qarayev bildirib ki, yuxarıdan göstəriş olduğuna görə onunla bağlı müsbət qərar verilməyəcək.

- 60 saylı  Salyan–Neftçala dairəsində müstəqil namizəd olan Kamil Musəviyə imza verən vətəndaşlara 4 yanvar 2020-ci ildə Kərimbəyli kənd icra nümayəndəsi təzyiq edərək deyib ki, ona imza və səs verməyin.

- 73 saylı Lənkəran şəhər seçki dairəsindən “Hərəkət” blokunun namizədi Baba Məmmədlinin səlahiyyətli nümayəndəsi Aytac Ağazadəni Şiləvar kənd məktəbinin direktoru Elnur Əsədov və imza toplayan  Nəriman Abdullahı isə Veravul kəndinin bələdiyyəsinin sədri evə gələrək təhdid edib və prosesdən çəkilmələri tələb edilib.

- 76 saylı Lənkaran-Astara seçki dairəsindən müstəqil namizəd Xalid Bağırov bildirir ki, Lənkəran kəndlərində (Yuxarı-Nüvədi, Xomili, Vel, Şürük və digərləri) kənd icra nümayəndələri əvvəlcədən evlərə zəng edib ki, Xalid Bağırova imza verməyin. Həmçinin  imza toplayan Mirzəzadə Hüseyn isə imza vərəqəsini götürüb İrana keçdiyini bildirib. Onun təhdid olunduğu güman edilir.

- 89 saylı Göyçay-Ağdaş seçki dairəsindən Ümid Partiyasının namizədi İlqar Məhərrəmli Ağdaşın bəzi kəndlərində imza topladıqdan sonra vətəndaşlar ona zəng ediblər. Ağdaş Rayon Polis İdarəsi

cinayət-axtarış şöbəsinin rəisi və kəndin sahə müvəkkili seçicilərin qapılarını döyüb. Göyçaydan gələn namizədə niyə imza vermələri barədə sorğulayıb, onların öz namizədinin olduqlarını bildiriblər.

- 95 saylı Tərtər seçki dairəsindən müstəqil namizəd Vüqar Əliyevin imzatoplama kampaniyasına icra və bələdiyyə nümayəndələri mane olur. O həmçinin Tərtər Rayonu İcra Hakimiyyəti başçısının İsmayılbəyli kəndindəki nümayəndəsi Babayev Aslanın ona imza yığmaqda kömək edən adama təzyiq edərək hədələdiyini bildirib.
- 100 saylı Şəmkir-Daşkəsən seçki dairəsində VHP-dən namizəd Ülfət Zeynalov imza vərəqələrini dairəyə təqdim edib, sonra yerli icra orqanları imza verən insanları işlərinə əngəl törədəcəkləriylə bağlı təhdid edib, imzalarından imtina etməyə məcbur ediblər, nəticədə namizəd imza vərəqələrini geri götürüb.
- 107 saylı Qazax seçki dairəsindən Müsavat Partiyasının namizədi İlqar Mustafayev imza toplayarkən icra hakimiyyətinin nümayəndələri vətəndaşların evlərinə zəng edərək onlardan İlqar Mustafayevə imza verməməyə çağırıblar.
- 110 saylı Zaqatala seçki dairəsindən müstəqil namizəd Nurlana Cəlilin imzatoplamadan əvvəl poçtda işləyən xalasına təzyiq ediblər. İmza vərəqələrini almazdan əvvəl təhsil şöbəsinin nümayəndələri, direktorlar müəllimlərlə iclas keçirib, onun "vətən xaini", ermənipərəst və erməni əsilli olduğunu bildriblər. Həmçinin müəllimləri ona imza verməməyə çağırıblar. Bununla yanaşı, yaxınlarını da bu barədə məlumatlandırmaq üçün tapşırıq veriblər. Bəhmətli kəndində vətəndaşlardan imza toplanılan zaman namizədin ailə üzvü kənd icra nümayəndəsi Şamil Xasməmmədovun təqibinə məruz qalıb. Həmçinin Oruc Qaraxanov 110 saylı seçki dairəsinin ərazisini AA seriyalı maşınla gəzərək namizəd haqqında qaralama kampaniyası aparıb, özünü Zaqatala meri kimi tanıdaraq vətəndaşları qəti şəkildə ona səs verməməyə çağırıb. Məlum olub ki, həmin şəxs İqtisad Universitetinin Zaqatala filialının müəllimidir. Növbəti gün imza vərəqələrindən birinin üstünə çay dağıdılıb.
- 124 saylı Şuşa-Ağdam-Xocalı-Xocavənd seçki dairəsindən Müsavat Partiyasının namizədi Nəcəf Qaraşlının imza vərəqələri yanvarın 8-də oğurlanıb. İmza toplayarkən bu hadisə baş verib. Polisə məlumat verilsə də, heç bir nəticə olmayıb. Nəticədə prosesi dayandırmaq məcburiyyətində qalıb.

### 5) İmzaların yoxlanılması prosesi üzrə aşkarlığın pozulması

Seçki Məcəlləsinin 59.3-cü maddəsi namizədlərin qeydiyyata alınması üçün imzaların yoxlanılması prosesində namizədlər, onların səlahiyyətli numayəndələri, siyasi partiyaların (siyasi blokların) səlahiyyətli numayəndələrinə iştirak etmək hüququ verib. Bunun üçün muvafiq secki komissiyaları yuxarıdakı sözügedən tərəflərə imzaların yoxlanması barədə əvvəlcədən məlumat verməlidirlər. 59.13-cü maddəyə görə hər bir namizəd üzrə imza vərəqələrinin yoxlanılmasının nəticələri haqqında işçi qrupunun tərtib etdiyi protokolun, rəyin və cədvəlin surəti namizədin qeydə alınması məsələsinə baxan seçki komissiyası iclasının başlanmasına azı 24 saat qalmış həmin şəxslərə verilir. Həmçinin Məcəllənin 58.2.-ci maddəsinə görə 58.1.2 — 58.1.6-cı maddələrdə göstərilən sənədlərdə qəsdən buraxılmayan səhvlər aşkar edilərsə, müvafiq seçki komissiyası namizədi 48 saat müddətində məlumat-

landırmalı və buraxılan səhvlərin düzəldilməsini təklif etməlidir. Göstərilən tələb məcburi xarakter daşısa da, secki komissiyaları bu şəxslərə bir çox hallarda imzaların yoxlanması zamanı əvvəlcədən məlumat verməyiblər.

***Bu cür pozuntular üzrə IDI-nin muşahidə etdiyi hallara dair numunələr:***

- 15 saylı Yasamal Birinci seçki dairəsində müstəqil namizəd Elcan Məmmədlinin yığdığı 500 imzadan 163 imzanın etibarsız olduğu bildirilərək namizədliyi qeydə alınmamışdır. Ona isə imzaların yoxlanması və namizədliyinin qeydə alınması barədə iclas haqqında heç bir məlumat verilməyib.
- 45 saylı Abşeron seçki dairəsindən müstəqil namizəd Zahir Rəhimovun imzalarının yoxlanması və namizədliyinin qeydə alınması iclasına dəvət etməyiblər.
- 98 saylı Şəmkir Seçki Dairəsindən müstəqil namizədlər Elbariz Tağıyev və Ceyhun Nəbiyevi imzaların yoxlanması və namizədliyinin qeydə alınması ilə bağlı iclasa dəvət etməyiblər. Həmçinin C.Nəbiyevə çatışmayan sənədlərin düzəldilməsi üçün 48 saat vaxt verilməyib.
- 108 saylı Ağstafa seçki dairəsində "REAL Cümhuriyyətçilər İttifaqı" seçki blokundan namizəd Vüqar Mustafayev 10 yanvar 2020-ci ildə imza vərəqələrini təqdim edib. O, DSK-ya imzaların yoxlanmasında iştirak etmək istədiyini bildirsə də, müxtəlif bəhanələr gətirərək ona imkan verməyiblər.
- 114 saylı Şəki kənd birinci seçki dairəsindən VHP-nin namizədi Pünhan İmamova məlumatlarını düzəltməsi üçün 48 saat vaxt verilməyib. Həmçinin imzaların yoxlanması və namizədliyinin qeydə alınması haqqında iclasa dəvət etməyiblər.
- 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsindən müstəqil namizəd İsmayılov Babək namizədliyin qeydə alınması barədə baxılan iclasa çağırılmayıb, həmçinin sənədlərinin yoxlanmasında iştiraka dəvət edilməyib.

**6) Seçki prosesinə kənar mudaxilələr**

Seçki Məcəlləsinin 115-ci maddəsində gostərilir ki, seçki prosesinin bütün mərhələlərində seçkilərin nəticələrinə təsir edəcək, həmcinin vətəndaşların seçmək və ya seçilmək hüququna hər hansı kənar mudaxilələr qadağan edilir.

***Bu cür pozuntular üzrə IDI-nin müşahidə etdiyi hallara dair numunələr:***

- 94 saylı Bərdə kənd seçki dairəsindən Müsavat Partiyasının namizədi Dadaş Əhmədli bildirib ki, Müsavatın yerli təşkilatının sədri Qeys Əsədovu Rayon İcra Hakimiyyətinin başçısının müavini İlham Məmmədov görüşə çağırıb. O, D.Əhmədlinin namizədliyini geri götürməsini təklif edib. Hadisə 15 dekabr 2019-cu ildə olub.
- 125 saylı Zəngilan-Qubadlı seçki dairəsindən Müsavat Partiyasının namizədi Nazim Azadoğlunun dediyinə görə, Qubadlı Rayon İcra Hakimiyyəti başçısı Malik İsakov qohumları vasitəsilə ondan namizədliyinin geri götürməsini istəyib.

- “REAL Cümhuriyyətçilər İttifaqı” seçki blokunun 116 saylı Qəbələ seçki dairəsindən namizədi Mehdi Quliyev, 88 saylı Göyçay seçki dairəsindən namizədi Famil Sadıqov, 94 saylı Bərdə kənd seçki dairəsindən namizədi Zöhrab Əliyev, 46 saylı Şirvan seçki dairəsindən namizədi Vasif Novruzov, 93 saylı Bərdə şəhər seçki dairəsindən namizədi Ərəstun Baxşəliyev bildirirlər ki, hakim partiya nümayəndələri icra hakimiyyəti vasitəsilə ərazidə qeyri–rəsmi şəkildə vaxtından əvvəl təşviqat kampaniyası aparırlar, müvafiq DSK-lar isə göz yumur.

**7) Seçki iştirakcılarına qarşı təzyiqlər**

Seçki Məcəlləsinin 11-1–ci maddəsinə görə, dövlət orqanlarının və bələdiyyələrin vəzifəli şəxslərinin seçkilərin gedişinə qanunsuz müdaxilə etmələri qadağandır. Vətəndaşların seçkidə iştirak hüquqlarının həyata keçirilməsinə mane olma, vətəndaşı namizədin lehinə imza atmağa məcburetmə və ya onun səs verməsinə mane olma, seçki komissiyalarının işinə müdaxilə etmə və ya təsir göstərmə, AR Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. IDI ilə əməkdaşlıq edən muşahidəcilərin verdiyi məlumatlara görə, seçki huquqları pozulan şəxslərin çoxu yerli icra strukturları və polisin təzyiqlərindən çəkinərək əksər halda aidiyyatı üzrə şikayət vermək istəmirlər.

***Bu cür pozuntular üzrə IDI-nin müşahidə etdiyi hallara dair numunələr:***

- 10 saylı Binəqədi üçüncü seçki dairəsində “Hərəkət” seçki blokundan namizəd Rəbiyyə Məmmədovaya qarşı Binəqədi kənd bələdiyyəsinin 3 üzvü tərəfindən təzyiq kampaniyası aparılıb.

- 41 saylı Sumqayıt birinci seçki dairəsindən Müsavat Partiyasının namizədi Könül Alıyevanın qohumlarına YAP-ın namizədi, Dövlət Komitəsinin sədri Hicran Hüseynova və Qubadlının icra başçısı Malik İsaqov təzyiqlər edərək, onun namizədliyini geri götürməsini tələb ediblər. Həmin dairədən digər 12 nəfər artıq namizədliyini geri götürüb.

- 44 saylı Sumqayıt-Xızı seçki dairəsindən Müsavat Partiyasının namizədi Malik Zeynalov bildirib ki, Xızının icra başçısı Xəzər Aslanov ondan namizədliyinin geri götürməsini istəyib. O, əsas kimi hazırki deputat Hacı Salayevin millət vəkili olacağını, başqa namizədə ehtiyac olmadığını bildirib. Bundan öncəki seçkilərdə M. Zeynalovun qardaşı Zeynalov Nemət hərbidən uzaqlaşdırılıb. Həmçinin onu Xızı rayon təhsil şöbəsi və Xızı Sitalçay kənd məktəbinin direktoru işdən çıxarmaqla təhdid edib. Bu təhdidlərdən sonra Malik Zeynalov imza vərəqələrini təhvil verməyərək, namizədliyini geri çəkmişdir.

- 73 saylı Lənkaran şəhər seçki dairəsindən “Hərəkət” seçki blokunun namizədi Baba Məmmədli 7 yanvar 2020-cu il tarixində imza vərəqələrini DSK-ya təqdim etdikdən sonra Şilvar kənd orta məktəbinin direktoru Elnur Əsədov Aytac Ağazadənin atası Elxan Ağayevi görüşə çağıraraq ondan xahiş edib ki, namizəd B. Məmmədli barədə polisə şikayət versin. İddia etsin ki, qızına sataşıb. O, Lənkəran icra hakimiyyəti başçısı Taleh Qaraşov və DTX Lənkəran şöbəsinin sədri B.Məmmədli haqqında artıq saxta cinayət işi barədə sənədləri hazırladıqlarını və yalnız bir şikayət ərizəsinə ehtiyacları olduğunu bildirib. Elxan Ağayev təklifi rədd edib.

- 78 saylı Lerik seçki dairəsindən deputatlığa Müsavat Partiyasından namizəd Tahir Hüseynov Lerik rayon icra başçısının I müavini Cəlil Baxşıyev və şöbə müdiri Əlipənah Bayramov tərəfindən təzy-

iqlərə məruz qalıb. Tahir Hüseynovun qardaşı Ağahüseyn Hüseynova və digər ailə üzvü, qohumlarına təzyiqlər edilərək ondan namizədliyini geri götürməsini tələb ediblər. Bu, alınmadıqda seçicilərə imza toplama prosesində təzyiqlər edilib.

- 78 saylı Lerik seçki dairəsində müstəqil namizəd (1 qrup gözdən əlil) Özal Muradov müəllim kimi çalışdığı Zenonu kənd orta məktəbində ona imza yığmağa kömək edəcək müəllim yoldaşlarına kənd icra nümayəndiliyindən edilən təzyiqlərə görə seçki fəaliyyətini imza yığma mərhələsində dayandırmaq məcburiyyətində qalıb.
- 91 saylı Ucar seçki dairəsindən Müsavat Partiyasının namizədi Teymur Məmmədov bildirib ki, icra hakimiyyəti tərəfindən onun qeydə alınması üçün imza vermiş seçicilərə təzyiq edilərək, onlardan imtina ərizələri alınır. O, imza vərəqələrini seçki dairəsinə Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Arzulla Buludlu ilə birgə təqdim edərkən DSK sədri Abdulrəzaq Abbasov hələ imza vərəqələrini nəzərdən keçirmədən deyib ki, Teymur Məmmədova imza verən vətəndaşlar ərizə ilə müraciət edib imzasını geri götürür.
- 93 saylı Bərdə seçki dairəsindən "REAL Cümhuriyyətçilər İttifaqı"ndan namizəd Ərəstun Baxşəliyev qeyd edib ki, Bərdə şəhər icra başçısının müavini 12 dekabr 2019-cu il tarixlərində valideyninə zəng vuraraq təhdid edib. "Oğlun yenə namizədliyini verir, bu dəfə bağışlanmayacaqsınız", - deyilib.
- 97 saylı Goranboy-Ağdam-Tərtər seçki dairəsindən Ümid Partiyasının namizədi Məhəmməd Böyükkişiyevin evinə 10 yanvar 2020-ci il tarixdə 4 nəfər gələrək onu ölümlə təhdid edib. O, bu barədə MSK-ya və Republika Prokurorluğuna rəsmi şikayət edib.
- 102 saylı Samux-Şəmkir seçki dairəsi üzrə "REAL Cümhuriyyətçilər İttifaqı"nın namizədi İsa İbrahimli bildirib ki, dekabrın 30-u Samux rayonu Alıuşağı kənd bələdiyyə sədri Elşad Xəlilov onun evinə gedib. Xəlilov Elşad ona deyib: "Bizə göstəriş veriblər ki, sənə imza toplamağa icazə verməyək". Həmin gün axşam saat 18.00 radələrində Xəlilov Elşad yenidən İsa İbrahimliyə zəng edərək ona təzyiq edib və o, 3 yanvar tarixində izləndiyini ifadə edib.
- 113 saylı Şəki seçki dairəsindən "REAL Cümhuriyyətçilər İttifaqı"ının namizədi Razim Rzayevə qarşı 27 dekabr – 3 yanvar tarixləri arasında YAP Şəki rayon təşkilatı tərəfindən təzyiqlər olub. Ondan namizədliyini geri götürməyi tələb ediblər. Əks halda özünün və ailəsinin işdən qovulacağı ilə hədələnib. Məsələni ictimailəşdirdikdən sonra hədə-qorxu dayanıb.

## VII. ŞİKAYƏT VƏ MÜRACİƏTLƏR

Seçki Məcəlləsinin 112-ci maddəsinə görə, şikayət və müraciətləri seçicilər, namizədlər, siyasi partiyalar və bloklar və onların nümayəndələri, müşahidəçilər və seçki komissiyaları edə bilərlər. Seçki komissiyalarının seçki hüquqlarını pozan hərəkət və qərarlarına daha yüksək səviyyəli seçki komissiyasında baxıla bilər. Habelə MSK-nın qərar və hərəkətlərindən Apelyasiya Məhkəməsinə şikayət etmək olar. Apelyasiya Məhkəməsindən isə Ali Məhkəməyə şikayət etmək mümkündür. Şikayət və ya müraciəti təqdim etmək üçün vaxt müddəti, pozuntunun baş verdiyi və ya qərarın çıxarıldığı gündən

sonra 3 gündür. Şikayətə baxılma müddəti isə seçkilərə 30 gün qalmışadək 3 gün ərzində, 30 gün qalmışdan etibarən 2 günədək, seçki günü və növbəti gün isə dərhal baxılmalıdır.

Seçki Məcəlləsi seçki ilə bağlı mübahisələrə baxılması üçün müvafiq olaraq MSK-da 9, DSK-da 3 nəfərdən ibarət ekspert qrupunun yaradılmasını nəzərdə tutur.

9 fevral 2020-ci il parlament seckilərinin ilkin mərhələsində - namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesində dairə seçki komissiyalarının hərəkət və hərəkətsizliklərindən olunan şikayətlərin əhəmiyyətli hissəsi obyektiv surətdə araşdırılmayıb. MSK-nın rəsmi internet səhifəsində yerləşdirilən məlumata gorə, parlament seckilərinin bu mərhələsində MSK-ya 37 şikayət daxil olub. Bu şikayətlərdən 12-i təmin edilib, 1 şikayətə xitam verilib, 24 şikayət əsassız olması adı ilə təmin edilməyib (daha ətraflı 3 saylı əlavədən məlumat almaq mümkündür). Təmin edilməyən şikayətlər uzrə hərtərəfli şəkildə araşdırılma aparılmayıb.

Ekspert Qrupunun uzvləri tərəfindən şikayətlər araşıdırılarkən daha çox Dairə Seçki Komissiyasının qərarına əsaslanılıb. Araşdırma zamanı MSK da DSK-lar kimi aşkarlıq prinsipinə və araşdırmaya dair prosedurlara əksər hallarda əməl etməyib.

Bundan əlavə, seçkidə iştirak edən tərəflərin IDI-nin müşahidəçilərinə verdiyi məumatlara görə, MSK-ya edilən şifahi müraciətlərin nəticə verməməsi də diqqət çəkir. Belə ki, pozuntu baş verdiyi zaman namizədlər, siyasi partiyaların və onların səlahiyyətli nümayəndələri MSK-nın “115 qaynar xətti”nə zəng edərək pozuntular barədə məlumat versələr də, əksər hallarda tədbir görülməyib. Həmçinin bir çox hallarda zənglərə, sadəcə, cavab verilməyib. Beləliklə, MSK-nın “115 qaynar xətti” seçki zamanı baş verən pozuntu halları ilə bağlı dərhal məlumat vermək və aradan qaldırmaq üçün effektiv olmayıb.

IDI MSK-da və məhkəmələrdə şikayətlərin baxılmasının monitorinqini aparır və monitorinqin nəticələrini ayrıca olaraq ictimailəşdirəcək.

## VIII. MEDİA MÜHİTİ VƏ TƏŞVİQATA HAZIRLIQ

### A. MEDİA

Növbədənkənar seçkilərin keçirilməsinə start verilərkən media mühitinə dair qiymətləndirmədə müsbətə doğru dəyişiklik baş verməyib. Yenə də müstəqil media mühiti məhduddur, xüsusilə elektron media bütünlüklə hökumətin nəzarəti altındadır.

Növbədənkənar seçkiyə start verildikdən sonra ifadə azadlığı kontekstində bəzi pozuntular baş verib.

12 dekabr 2019-cu ildə Azərbaycan vətəndaşı, bloger Elvin İsayev Ukraynada miqrasiya qanunvericiliyinin tələblərinin pozulması səbəbi ilə qayıdış şəhadətnaməsi əsasında Azərbaycana deportasiya edilib[25]. O, sosial şəbəkə üzərindən çox sərt, hətta diffamativ ifadələrə üstünlük verən bir metodla hökuməti tənqid etdiyinə görə, onun deportasiyası xüsusi diqqət çəkib. Saxlanıldıqdan sonra təzyiqə məruz qaldığına dair xəbərlərə cavab olaraq onun adından mediaya ünvanlanmış və “cinayətini etiraf etdiyi”nə dair məlumat yayılıb.[26] Daha sonra Baş Prokurorluq açıqlama yayaraq Elvin İsayevin “Azər-

[25] https://www.amerikaninsesi.org/a/tənqidçi-bloger-azərbaycana-deportasiya-olunub/5205922.html

[26] https://sherg.az/xəbər/113030

baycan Respublikası ərazisində kütləvi iğtişaşlara və dövlət əleyhinə yönələn açıq çağırışlar etməsi faktları üzrə” cinayət işi başlandığını bildirib.[27]

2019-cu il iyunun 12-də CM-in 274-cü maddəsi (dövlətə xəyanət) ilə ittiham irəli sürülərək saxlanılan, www.xeberman.com saytının redaktoru Polad Aslanov barəsində 13 dekabr 2019-cu ildə yenidən istintaq hərəkəti aparılıb. Lakin jurnalist növbəti dəfə müstəntiqə ifadə verməkdən imtina edib. Bu barədə onun həyat yoldaşı Gülmirə Aslanova “Facebook” səhifəsində məlumat yayıb. O, həbsinin sifarişli olduğunu iddia edərək, bu addımı atdığını bildirib.[28]

23 dekabr 2019-cu ildə “Paster” ləqəbli reper Pərviz Quluzadə öz ifalarında hakimiyyəti qıcıqlandıran ifadələr işlətdiyinə və xüsusən də replərindən birində hakim ailəyə məxsus “PaşaBank“ın ölkəni zəbt etməsinə işarə etdiyinə görə Daxili İşlər Nazirliyinin (DİN) Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə aparılaraq 4 gün orada saxlanılıb, sonra isə polisə müqavimət ittihamı ilə 30 gün inzibati həbsə məhkum edilib. İddialar var ki, ona qarşı qeyr-insani rəftara yol verilib.[29]

Daxili İşlər Nazirliyinin yaydığı məlumatda isə bildirilir: “P.Quluzadə Binəqədi rayonu ərazisində narkotikin təsiri altında ictimai asayişi və ictimai qaydanın pozulmasına yönəlik hərəkətlər edərkən polis əməkdaşları onu intizama dəvət edib. Lakin o, polisin qanuni tələblərinə tabe olmayıb”.[30]

Bir sözlə, nazirlik reperin xuliqanlıq etdiyinə görə 30 sutka həbs edildiyini bəyan edib.

Deputatlığa namizəd, bloger Mehman Hüseynov dekabrın 27-də repçi Pərviz Quluzadənin həbsinə etiraz etdiyinə görə Nizami küçəsində, axşam saatlarında polis tərəfindən saxlanılıb. O, şəhər kənarına aparılıb və döyülüb. DİN Hüseynovun "razılaşdırılmamış aksiya keçirdiyinə və vətəndaşların istirahətini pozduğuna görə" saxlanıldığını təsdiq edib, amma döyülmə faktını təkzib edib.[31]

ATƏT-in KİV azadlığı üzrə xüsusi nümayəndəsi Arlem Dezir də blogerin polis tərəfindən saxlanılması və döyülməsi haqqında məlumatlardan narahatlığını bildirib: "Hakimiyyəti bu məsələni tez və ətraflı araşdırmağa və təqsirkarları məsuliyyətə cəlb etməyə çağırıram”, - deyə o, “Twitter”dəki mikrobloqunda yazıb.[32]

2020-ci il 7 yanvarda "Lombard N1”in sahibi Məlahət Qurbanovanın xüsusi ittiham qaydasında **www.criminal.az** saytının baş redaktoru Anar Məmmədova qarşı təhqir və böhtana yolvermə iddasını Ağdam Rayon Məhkəməsinin hakimi Mahir Niftəliyev icraata qəbul edib. Anar Məmmədov Gəncə olaylarından yazdığına görə Bakı Ağır Cinayətlər Məhkəməsinin 2019-cu ilin mart qərarı ilə 5.6 il şərti azadlıqdan məhrum edilmiş, onun rəhbəri olduğu criminal.az saytına isə ölkədən giriş qadağan olunmuşdu. Əgər jurnalist bu diffamativ iddiadan məhkum olarsa, O, 5.6 illik şərti cəza müddətini də (qanuna görə şərti cəza müddətində yeni cinayət törətməsi səbəbinə görə) həbsxanada keçirməli olacaq.

5 dekabr 2019-cu ildə Avropa İnsan Hüquqları Məhkəməsi qətlə yetirilmiş yazıçı-publisist Rafiq Tağının işi ilə bağlı qərarını açıqlayıb və Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin (İfadə Azadlığı) pozuntusunu tanıyıb. AİHM-nin məlumatına əsasən qərar mərhum Rafiq Tağının “Avropa və Biz” yazısına görə məhkum edilməsi işi ilə bağlıdır. Avropa Məhkəməsi hesab edib ki, jur-

---

[27] https://muxalifet.az/bas-prokurorluq-elvin-isayevl-bagli-aciqlama-yaydi-blogerin-ittiham-olunma-sbblri.html?page=1

[28] https://basta2.com/az/2019/12/16/həbsdəki-jurnalist-ifadə-verməkdən-imtina-edir/

[29] https://www.amerikaninsesi.org/a/reper-həbs-edilib-/5222089.html

[30] https://apa.az/az/hadise/DIN:-Reper-Prviz-Quluzad-polis-tabe-olmadigi-ucun-hbs-edilib-565273

[31] http://www.turan.az/ext/news/2019/12/free/politics%20news/az/86223.htm

[32] https://twitter.com/OSCE_RFoM/status/1210880396990304256

nalistin bir məqaləyə görə, cinayət cəzasına məhkum eidlməsi onun ifadə azadlığı hüququnu pozub. Qərara əsasən, hökumət Rafiq Tağının həyat yoldaşına və Samir Sədaqətoğluna 12 850 avro təzminat ödəyəcək.[33]

2020-ci il 15 yanvarda beynəlxalq qeyri-hökumət təşkilatları Azərbaycan hakimiyyətini araşdırmaçı jurnalist Xədicə İsmayılın ölkədən çıxışına qoyulmuş qadağanı ləğv etməyə çağırıblar.[34] Bu çağırış "Senzura indeksi","Sərhədsiz Reportyorlar" və "Beynəlxalq şəffaflıq" təşkilatlarının yaydıqları birgə bəyanatda əksini tapıb. Çağırışa səbəb, Azərbaycan parlamentinin deputatı Cavanşir Feyziyevin OC-CRP -nin təmsilçisi Paul Radunu "Azərbaycanın pulyuyan maşını" layihəsi çərçivəsində yazılan məqalələrinə görə Londonda məhkəməyə verməsidir. O, jurnalisti böhtan atmaqda ittiham edir. OC-CRP-in Azərbaycandakı aparıcı əməkdaşı Xədicə İsmayıl bu iş üzrə əsas şahiddir. "Senzura indeksi" təşkilatının icraçı direktoru Jodie Ginsberg bildirib: "Azərbaycan Xədicə İsmayılı cəzalandırmaq və reportajlarının qarşısını almaq üçün ədalətsiz olaraq onun səfər etməsini əngəlləyir".

IDI medianın seçkilərdə fəaliyyətini qiymətləndirmək üçün monitorinq aparıb və birinci dövr üçün nəticələri 23 yanvar 2020-ci il tarixdə açıqlayacaq.[35]

## B. TƏŞVİQAT PROSESİNƏ HAZIRLIQ

Seçki Məcəlləsinə əsasən təşviqat ödənişli və ödənişsiz olmaqla iki formada namizədlərə təqdim edilir. Artıq təşviqat prosesində iştirak etmək istəyən media qurumları ödənişli təşviqat qiymətlərini MSK-ya təqdim ediblər.[36] Azərbaycanda hazırda 12 ümumölkə[37], 12 regional yayımçı[38] olmaqla toplam 24 telekanal mövcuddur. Ümumölkə radiolarının sayı 13[39], regional radioların sayı isə 3-dür[40]. Toplam ölkə üzrə 40 olan Televiziya və radiolardan, sadəcə, tək İctimai Televiziya və Radio Şirkəti Parlament seçkilərində təşviqat prosesində iştirak edəcək.[41] Bu iştirak isə onların könüllü iştirakı yox, Seçki Məcəlləsinin 77-ci maddəsinin[42] tələbindən doğan iştirakdır. Bu mənzərə özü göstərir ki, seçki təşviqatının elektron media üzərindən aparılması arzu olunmur. Xüsusilə yayım sahiblərinin mütləq əksəriyyətinin birbaşa və ya dolayı olaraq hökumətdən və ya ona yaxın olan çevrədən asılı olmaları bu yanaşmanın hökumətin iradəsinin təzahürü kimi qiymətləndirilməsinə əsas yaradır.

Ödənişsiz təşviqat aparılması üçün namizədlərə şərait yaratmaq vəzifəsi Seçki Məcəlləsinin 77-ci maddəsinə əsasən sadəcə İctimai Teleradio yayımına verilib. Lakin bu şərti efir vaxtıdır və fərdi olaraq namizədlərə verilməyib. Bu hüquqdan 60-dan çox seçki dairəsindən namizədi qeydə alınan siyasi partiya və ya blok istifadə edə bilər. Namizədlərin qeydiyyatı müddəti başa çatıb və bu seçkilərdə 2015-ci ildə olduğu kimi hakim Yeni Azərbaycan Partiyasından başqa heç bir siyasi partiya və blokun 60 dairə

---

33 https://hudoc.echr.coe.int/eng#{"itemid":["001-198705"]}

34 https://rsf.org/en/news/reporters-without-borders-index-censorship-and-transparency-international-uk-urge-azerbaijan-lift

35 http://arqument.az/file/files/IDI_MEDIA%20MONITORING_Sentyabr%202015.pdf

36 http://www.msk.gov.az/az/elections/milli-meclise-seckiler/parlament-09-02-20/1103/

37 http://www.ntrc.gov.az/az/content/left/2.html

38 http://www.ntrc.gov.az/az/content/left/3.html

39 http://www.ntrc.gov.az/az/content/left/4.html

40 http://www.ntrc.gov.az/az/content/left/5.html

41 http://www.msk.gov.az/az/elections/milli-meclise-seckiler/parlament-09-02-20/1103/

42 http://e-qanun.gov.az/code/17

üzrə namizədi qeydə alınmadı. Beləliklə, hakim partiyadan başqa heç bir siyasi partiya və ya müstəqil namizədin ödənişsiz efir vaxtından istifadə etmək hüququ yaranmadı.

Ödənişli efir vaxtına gəldikdə isə bu hüquqdan namizədlər hüquqi baxımdan bərabər şəkildə faydalana bilərlər. Lakin MSK-ya təqdim olunan iştirakçıların siyasi reklam qiymətlərinə baxdıqda bunun da namizədlər üçün çatımlı olmadığı bəlli olur. Ümumiyyətlə, ödənişli seçki təşviqatında iştirak etmək üçün 30 informasiya Agentliyi və veb resurs, 9 qəzet və 1 teleradio qeydiyyatdan keçərək, ödəniş qiymətlərini təqdim edib. Ən yüksək qiyməti təsisçisi dövlət olan və dövlət büdcəsindən maliyyələşən İctimai Televiziya təqdim edib. Onun səhər saatlarında ödənişli efir vaxtının 1 dəqiqəsinin qiyməti (ƏDV daxil olmaqla) 1558 manat, ən çox izlənmə saatı olan axşam saatlarında isə dəqiqəsi 4602 manat müəyyən edilib.[43] Ölkədə minimum əməkhaqqı 250 manat, orta aylıq əməkhaqqı 604 manat olduğu halda, bu qiymət olduqca yüksəkdir.[44]

İnformasiya agentlikləri və saytlar da çox yüksək reklam dəyəri müəyyən ediblər. Məsələn, APA-nın bütün səhifələrdə sağda görünməsi şərti ilə 260*383 piksel ölçülü baner qiyməti 5000 manat müəyyən edilib.[45] Milli Məclisin təsisçisi olduğu Azərbaycan qəzetində 1 kvadrat santimetr üçün müəyyən olunan maksimum qiymət 4,13 manat müəyyən edilib.

Ümumiyyətlə, seçki təşviqat matreallarının qiymətlərinin heç bir standarta uyğun gəlmədiyi müşahidə edilir. Məsələn İctimai televiziyanın illik reklam üçün ayrılan yerləri və aldığı reklamın dəyəri baxımından orta qiymət 2015-ci ildə[46] bir dəqiqəsi 2,44 manat olub.[47] Özəl medanın da illik reklam gəlirləri çox məhduddur və Dövlət Statistika Komitəsinin yaydığı məlumata əsasən, 2018-ci ildə ölkədə bütün qəzetlərin aldığı reklam cəmi 100 manat olub.[48]

MSK seckiqabağı təşviqat dövründə namizədlərin seçicilərlə görüşməsi və toplantılar keçirməsi üçün hər bir seçki dairəsi üzrə 1 açıq və 1 qapalı olmaqla cəmi 272 yerin siyahısını müəyyənləşdirib.[49] Lakin 2010-cu il Parlament seçkilərində 2676 açıq və 2254 qapalı olmaqla cəmi 4930 yer ayrılmışdı.

Ayrılmış yerlər təkcə sayın azlığı baxımdan deyil, yerlərin yerləşmə məkanları və seçicilərin rahat iştirakı baxımdan heç əlverişli deyil, əksinə ciddi çətinlik yaradır. Regionlar üzrə, xüsusən seçiciləri məcburi köçkün olan seçki dairələri üzrə problem daha qabarıq görünür. Ölkənin müxtəlif bölgələrində məskunlaşan məcburi köçkün seçicilər namizədlərlə görüşmək üçün 100-lərlə kilometrl yol getməlidirlər. Məsələn:

* 120 saylı Cəbrayıl - Qubadlı seçki dairəsi üzrə 73 seçki məntəqəsinin cəmi 11-nin seçiciləri görüş yeri kimi nəzərdə tutulan Biləsuvardadır. 62 seçki məntəqəsinin seçiciləri ölkənin müxtəlif yerindən ora getməlidir.
* 121 saylı Laçın seçki dairəsi üzrə 102 seçki məntəqəsindən 18-nin seçiciləri görüş yeri olan Ağcabədidədir. 84 seçki məntəqəsinin seçiciləri ölkənin müxtəlif yerindən ora getməlidir.

---

43 http://www.msk.gov.az/uploads/MM-2020/kiv/itv/qosma1.jpg

44 https://banker.az/azərbaycanda-orta-ayliq-əmək-haqqi-600-manati-kecib/?fbclid=IwAR0lvKwfck8RqlYBYETCYy19_58A8_hvMDtyztwiNj-DXMW09Cw4Odn1_-2Y

45 http://www.msk.gov.az/uploads/MM-2020/kiv/apagroup/apa.jpg

46 2015-ci ildən sonra İctimai yayımın maliyyə hesabatı açıqlanmayıb.

47 https://novator.az/2020/01/15/huquqsunasin-ictimai-teleradioya-suali-var/

48 http://contact.az/ext/news/2019/7/subsc/economics%20news/az/82531.htm

49 http://www.msk.gov.az/az/elections/milli-meclise-seckiler/parlament-09-02-20/1106/

Azsaylı istisnalar olmaqla qarışıq seçki dairələri üzrə də görüş üçün ayrılan yerlərin məhdud sayı xeyli çətinlik yaradır. Məsələn: 106 saylı Tovuz-Qazax-Ağstafa seçki dairəsi üzrə Qazax və Ağstafadan olan seçicilər görüş üçün Tovuza, həmçinin ucqar və dağlıq rayonların kəndlərində yaşayan seçicilər isə öz namizədlərilə görüş üçün saatlarla vaxt itirib rayon mərkəzlərinə getməlidirlər. Bu vəziyyət seçkilərdə alternativ tərəflərin yarışının bərabər şəraitdə keçirilməsi imkanlarını əhəmiyyətli dərəcədə daraldıb.

## VIII. NƏTİCƏLƏR VƏ TÖVSİYƏLƏR

**IDI Parlament seckiləri gedişinin ilkin mərhələsilə bağlı aşağıdakı nəticələrə gəlir:**

- Parlament seçkiləri öncəsi siyasi muhitin yaxşılaşmaması, bütün çağırışlara baxmayaraq siyasi və vicdan məhbusu kimi tanınan şəxslərin həbsdən azad edilməməsi, habelə söz və mətbuat , həmçinin sərbəst toplaşmaq azadlığı, ictimai-siyasi fəaliyyət imkanları ilə bağlı problemlərin həlli istiqamətində nəzərə çarpacaq yeniliyin olmaması seçkilərin azad və demokratik qaydada kecirilməsinə dair ümidlər yaratmır.
- 9 fevral 2020-ci il Milli Məclisə seçkilər üzrə namizədlərin irəli sürülməsi və qeydiyyatı mərhələsi bəzi yerli icra hakimiyyətlərinin namizəd olmaq istəyən şəxslərə təzyiqləri, seçki komissiyalarının fəaliyyətində aşkarlıq və namizədlərə münasibətdə bərabərlik prinsiplərinin pozulması, bəzi namizədlərə namizədlikdən imtina ərizəsi yazdırılması, habelə kənar mudaxilələr nəticəsində bir çox seçki dairələrində alternativsizlik mühitinin yaradılması ilə nəticələnib.
- MSK öz fəaliyyətini texniki cəhətdən qanunauyğun qaydada və müddətdə həyata keçirib. Lakin namizədlərin irəli sürülməsi və qeydiyyatı prosesində DSK-ların fəaliyyətindəki pozuntularla bağlı şikayətlərə MSK-nın yanaşması əksər hallarda əsaslandırılmış və obyektiv olmayıb.
- Namizədlərin irəli sürülməsi və qeydiyyatı dövründə baş verən qanun pozuntuları, təşviqata hazırlığın göstəriciləri 9 fevral 2020-ci il parlament seckilərinin azad, ədalətli və demokratik keçiriləcəyinə əsaslı şübhələr yaradır.

**IDI Parlament seckiləri gedişinin ilkin mərhələsində gəlinən nəticələrə əsasən aşağıdakıları təklif edir:**

- Yerli və beynəlxalq təşkilatlarının cağırışlarına diqqət yetirilməli, eyni zamanda ölkədə qarşılıqlı etimad mühitinin yaradılması üçün siyasi və vicdan məhbusu kimi tanınan şəxslər həbsdən azad edilməlidir;
- MSK tərəfindən qəbul olunmuş normativ xarakterli aktların Seçki Məcəlləsilə uyğunsuzluqları aradan qaldırılmalı, o cümlədən beynəlxalq qurumların müvafiq tövsiyələri yerinə yetirilməlidir.
- Parlament seçkiləri ərəfəsində namizədlərin irəli sürülməsi və qeydiyyatı zamanı qeydə alınmış qanun pozuntularının araşdırılması istiqamətində müvafiq tədbirlər görülməli, ədalətli, obyektiv və əsaslandırılmış araşdırmalar aparılmalıdır.
- Seçki huququnu pozan butun şəxslər, xüsusən də bu işlərdə iştirak etmiş dövlət və bələdiyyə orqanlarının vəzifəli şəxsləri məsuliyyətə cəlb edilməli və cəzalandırılmalıdır.
- Parlament seckilərinin növbəti mərhələlərində - seçkiqabağı təbliğat və seçki günü seçki subyektlərinə sərbəst və azad secki mühiti yaradılmalı, sərbəst toplaşmaq, söz və mətbuat azadlığı təmin olunmalı, seckiqabağı ictimai muzakirələr üçün şərait yaradılmalı, habelə seçki prosesinə kənar mudaxilələrin qarşısı alınmalıdır

**IDI İdarə Heyəti**

Bakı şəhəri, 21 yanvar 2020-ci il

**Əlaqə :**

**Tel:** (+994 55) 234 76 76

**E-mail:** idi.azerbaijan@gmail.com

**Veb səhifə:** www.idi-aze.org

**Facebook page:** https://www.facebook.com/DTI.IDI/

**1a saylı Ə L A V Ə**

## Partiya və təşkilatların təqdim etdikləri

## M Ə L U M A T

| A | B | C | D | E | F | G | H | İ |
|---|---|---|---|---|---|---|---|---|
| Seçkidə iştirak edən tərəf | İrəli sürülmüş namizədlərin sayı | İmza vərəqi götürmüş namizədlərin sayı | İmza vərəqləri və digər seçki sənədlərini seçki komissiyasına təqdim etmiş namizədlərin sayı | Qeydiyyatından DSK qərarı ilə imtina olunan namizədlərin sayı | DSK qərarından MSK-ya şikayət etmiş namizədlərin sayı | Məhkəməyə müraciət etmiş namizədlərin sayı | MSK (və ya Məhkəmə) tərəfindən qeydə alınmış namizədlərin Sayı | Qeydə alınmış namizədlərin sayı |
| YAP | 123 | 123 | 123 | 0 | 0 | 0 | 0 | 123 |
| MÜSAVAT | 81 | 79 | 75 | 12 | 2 | 0 | 1 | 64 |
| REAL | 46 | 35 | 31 | 0 | 2 | 2 | 0 | 31 |
| ÜMİD | 74 | 60 | 24 | 3 | 1 | 0 | 1 | 22 |
| Hərəkət | 18 | 17 | 17 | 1 | 1 | 1 | 0 | 16 |
| VHP | 56 | 15 | 15 | 1 | 1 | 0 | 0 | 14 |
| ADP | 20 | 18 | 15 | 7 | 0 | 0 | 0 | 8 |

*1b saylı ƏLAVƏ*

**MSK-nın rəsmi rəqəmlərin əsasında namizədlərin sayının statistikası**

| Sıra sayı | Seçkidə iştirak edən tərəf | Qeydə alınmış namizədlərin sayı | Partiya mənsubiyyəti göstərənlərin sayı | Partiya tərəfindən irəli sürülmə | Öz təşəbbüsü və ya təşəbbüs qrupu tərəfindən irəli sürülmə |
|---|---|---|---|---|---|
| 1 | YAP | 145 | 145 | 123 | 22 |
| 2 | MÜSAVAT | 64 | 64 | 26 | 38 |
| 3 | ÜMİD | 22 | 21 | 22 | 0 |
| 4 | BAXCP | 16 | 16 | 16 | 0 |
| 5 | VHP | 14 | 14 | 14 | 0 |
| 6 | VAP | 12 | 12 | 12 | 0 |
| 7 | AVP | 12 | 12 | 12 | 0 |
| 8 | AMİP | 10 | 10 | 9 | 1 |
| 9 | ADP | 9 | 9 | 8 | 1 |
| 10 | MDHP | 8 | 8 | 8 | 0 |
| 11 | BQP | 7 | 7 | 3 | 4 |
| 12 | MMP | 5 | 5 | 5 | 0 |
| 13 | DİP | 5 | 5 | 5 | 0 |
| 14 | ASRP | 3 | 3 | 1 | 2 |
| 15 | BAP | 2 | 2 | 1 | 1 |
| 16 | AP | 2 | 2 | 0 | 2 |
| 17 | VP | 2 | 2 | 2 | 0 |
| 18 | DADP | 2 | 2 | 0 | 2 |
| 19 | AXP | 2 | 2 | 0 | 2 |
| 20 | VİP | 1 | 1 | 1 | 0 |
| 21 | AMP | 1 | 1 | 0 | 1 |
| 22 | ADMP | 1 | 1 | 1 | 0 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **23** | **AKP** | **1** | **1** | **0** | **1** |
| **24** | **ƏP** | **1** | **1** | **0** | **1** |
| **25** | **VBP** | **1** | **1** | **0** | **1** |
| **26** | **ALDP** | **1** | **1** | **1** | **0** |
| **27** | **AYP** | **1** | **1** | **0** | **1** |
| **28** | **AARP** | **1** | **1** | **0** | **1** |
| **29** | **Bitərəflər** | **1194** | **0** | **1(Ümid)** | **1193** |
| **30** | **CƏMİ** | **1544** | **350** | **270** | **1274** |

**Qeyd:** *Bu seçkilərdə 28 partiyadan 350 nəfər partiya mənsubiyyətini göstərərək namizəd kimi iştirak edir. Cəmi 19 partiyadan 270 nəfər namizədliyin partiya tərəfindən irəli sürülmə formasını seçib. 7 partiyanın (YAP və Müsavat Partiyası da daxil) 69 üzvü siyasi partiya mənsubiyyətini göstərməklə həm də öz təşəbbüsləri ilə seçkilərə qoşulub. 5 siyasi partiyanın 12 üzvü isə yalnız öz təşəbbüsləri ilə seçkilərdə iştirak edir. Yalnız Ümid Partiyasının namizədlərindən biri bitərəf şəxsdir, digər paryiyaların namizədlərinin həm də partiya mənsubiyyəti var. Geridə qalan 1193 nəfər bitərəf namizəd isə öz təşəbbüsü və ya təşəbbüs qrupu tərəfindən irəli sürülüb.*

*2 saylı Ə L A V Ə*

| DSK nömrəsi | Pozuntular | | | | |
|---|---|---|---|---|---|
| | **Namizəd münasibətdə bərabərliyin pozulması** | **İnzibati resurslardan istifadə** | **Aşkarlığın pozulması** | **Prosesə kənar müdaxilə, iştirakçılara təzyiqlər və imza toplamağa mane olma** | **Seçici siyahılarınınn məntəqələrdə asılmaması** |
| **8** | | | | | **x** |
| **9** | **X** | | **X** | | **x** |
| **10** | **X** | **X** | **X** | **X** | **x** |
| **11** | | **x** | | **x** | |
| **13** | **x** | | | **x** | |
| **15** | **x** | | **X** | **x** | **x** |
| **16** | **x** | | **X** | | **x** |
| **17** | **x** | | **X** | **X** | |
| **18** | **x** | | | | **x** |
| **19** | | | **x** | | **x** |
| **20** | | | **x** | **x** | |
| **21** | | | **x** | | **x** |
| **22** | | | **x** | | |
| **23** | **x** | | **x** | **x** | **x** |
| **26** | **x** | | | | |
| **27** | **x** | | **x** | | **x** |
| **28** | **x** | | | | **x** |
| **29** | **x** | | **x** | **x** | **x** |
| **30** | **x** | | | | |
| **31** | | | **X** | | |
| **32** | | | **X** | | **x** |
| **33** | | | **X** | | **x** |
| **34** | | | **X** | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **35** | | **x** | | | |
| **40** | **x** | | **x** | | **x** |
| **41** | **x** | | | **x** | **x** |
| **42** | | | **X** | | **x** |
| **43** | | | | **x** | **x** |
| **44** | **x** | | | **x** | |
| **45** | **x** | | **X** | | |
| **46** | **x** | **x** | **x** | **x** | **x** |
| **47** | | | **X** | | |
| **53** | | **x** | | **x** | |
| **54** | **x** | | **x** | **x** | |
| **55** | | | | **x** | |
| **57** | **x** | | | | |
| **60** | | | | **x** | |
| **63** | **x** | | | | |
| **66** | | | | **x** | |
| **73** | **X** | **X** | **X** | **X** | **x** |
| **74** | **x** | | | | |
| **76** | **X** | | | **x** | **x** |
| **77** | **x** | | | | |
| **78** | | | | **x** | |
| **81** | | | | **x** | **x** |
| **84** | | | | **x** | **x** |
| **88** | | | | **x** | |
| **89** | **x** | | | **x** | **x** |
| **91** | | | | **x** | |
| **93** | **x** | **x** | | **x** | **x** |
| **94** | **x** | **x** | | **x** | **x** |
| **95** | | **x** | **x** | **x** | **x** |
| **96** | **x** | | | | **x** |

| | | | | | |
|---|---|---|---|---|---|
| **97** | x | x | | x | |
| **98** | x | | x | | |
| **100** | | | | x | |
| **102** | x | x | | x | |
| **103** | x | x | | x | |
| **107** | | | | x | x |
| **108** | x | | x | | |
| **109** | x | | | x | |
| **110** | x | x | x | x | x |
| **111** | x | | | x | x |
| **112** | x | | | | |
| **113** | | x | | x | x |
| **114** | x | | x | | |
| **115** | x | | | | |
| **116** | x | | | x | x |
| **117** | | | x | | |
| **118** | x | | | | x |
| **119** | x | | | | |
| **120** | | | x | | x |
| **124** | | | | x | |
| **125** | x | | | x | x |

*3 saylı ƏLAVƏ*

**MSK-ya edilmiş şikayətlərin ümümi statistikası**

***(Ekspert qrupu tərəfindən baxılmış müraciətlər)***

| Qərar | MSK-ya edilən müraciətin sayı | Namizədin qeydə alınması ilə bağlı DSK qərarından olanlar | Seçki subyektlərinə (namizədə, siyasi prtiyanın səlahiyyətli nümayəndəsinə və.s) qarşı DSK və digər inzibati orqanlar tərəfindən baş vermiş pozuntularla bağlı | Qanunsuz təşviqatla bağlı |
|---|---|---|---|---|
| Təmin edilən | 12 | 12 | 0 | 0 |
| Təmin edilməyən | 24 | 24 | 0 | 0 |
| Baxılması üçün DSK-ya göndərilən | 0 | 0 | 0 | 0 |
| Aidiyyatı üzrə digər qurumlara göndərilən | 0 | 0 | 0 | 0 |
| Şikayətçi ərizəsindən imtina etdiyi üçün müraciətin baxılmasına xitam verilən | 1 | 1 | 0 | 0 |
| Şikayət müddəti bitdiyi üçün müraciəti ərizəçiyə geri göndərilən | 0 | 0 | 0 | 0 |
| **Cəmi** | 37 | 37 | 0 | 0 |

**Baxılmış müraciətlərin seçkidə iştirak edən tərəflər üzrə statistikası**

| **Mənsub olduğu partiya və ya təşkilat** | **Ümumi müraciətin sayı** | **Namizədliyin qeydə alınması ilə baglı təmin olunanlar** | **Namizədliyin qeydə alınması ilə bağlı təmin edilməyənlər** | **Digər şikayətlər üzrə təmin edilənlər** | **Digər şikayətlər üzrə təmin edilməyənlər** | **Baxılmamış saxlanılanlar** | **Baxılması üçün DSK-ya göndərilənlər** |
|---|---|---|---|---|---|---|---|
| YAP | 4 | | 4 | | | | |
| Ümid | 1 | 1 | | | | | |
| VHP | 3 | 1 | 2 | | | | |
| REAL | 3 | 1 | 2 | | | | |
| Hərəkət | 2 | | 2 | | | | |
| Bitərəflər | 24 | 9 | 14 | | | 1 | |
| **Cəmi** | 37 | 12 | 24 | | | 1 | |